**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№347/1** **31 avqust 2022-ci il**

**Auditor təşkilatlarının və sərbəst auditorların 2022-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal – tövsiyələrin hazırlanması barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2022-ci il üzrə iş planının 1.4-cü "Auditor təşkilatlarının və sərbəst auditorların hesabatlarının toplanması, təhlili və icmal-tövsiyələrin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə Palatanın Auditin təşkili, hesabatlılıq və informasiya idarəsi (V.Cavadov) tərəfindən hazırlanmış 2022-ci ilin I yarımilliyi üzrə hesabatı müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditor təşkilatlarının və sərbəst auditorların 2022-ci ilin I yarımilliyi üzrə hesabatlarının toplanması, təhlili və icmal – tövsiyələrin hazırlanması barədə" hesabat nəzərə alınsın (əlavə olunur).

2. 2022-ci ilin I yarımilliyində auditor xidmətinin inkişafı sahəsində göstərdikləri səylərə görə və Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə yenidən baxılması barədə" qərarına əməl edən aşağıda adları qeyd olunan auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara təşəkkür elan edilsin:

- "Alfa-Audit" QSC (direktor – Musayev Vəli);
- "Baker Tilly Audit Azərbaycan" QSC (direktor – Həsənov Şahin);
- "Baltik Kaspian Audit MMC (direktor-auditor – Əsədullayev Samir);
- "BDO Azərbaycan MMC" (direktor-auditor – Salayev Yunis);
- "F.N. Audit Servis" MMC (direktor – Əliyev Fuad);
- "FİNSTAB AUDİT" MMC (direktor-auditor – Yusifzadə Yusif);
- "Garant Audit Azərbaycan" MMC (direktor – Cəfərov Elçin);
- "Grow Audit and Consultinq" MMC (direktor – Abdulahmanov Orxan);
- HLB Azərbaycan (direktor – Əliyev Müşviq);
- "İntex Audit" MMC" (direktor-auditor – Əliyev Ruhin);
- "NZA Audit" MMC (direktor - auditor– Axundov Nihad);
- "Nexia EA" QSC (direktor - auditor– Haqverdiyev Həsən);
- "Prime Audit Consaltinq" LLC (direktor – Həsənzadə Anar);
- "Qudvil AuditConsultinq"MMC (direktor – Əliyeva Səyyarə);
- "L.B.Audit xidməti" MMC (direktor-auditor – Bayramova Lamiyə);
- Sərbəst auditor Axundov Nazim
- Sərbəst auditor Axundov Vaqif
- Sərbəst auditor Cəfərov Elxan
- Sərbəst auditor Xıdırbəyli Cavid
- Sərbəst auditor Şərifov Ərşad
- Sərbəst auditor Seyidov Elnur

3. 2022-ci ilin I yarımilliyi üzrə auditor təşkilatları və sərbəst auditorlar tərəfindən təqdim edilən hesabatların təhlili zamanı aşkar edilmiş nöqsan və çatışmazlıqların aradan qaldırılması üçün əməli tədbirlər görülməsi məqsədilə auditor təşkilatlarının rəhbərlərinə və sərbəst auditorlara tapşırılsın ki:

3.1. 2022-ci ilin I yarımilliyində icra edilməyən müqavilələrin cari ilin sonuna qədər yerinə yetirlməsini təmin etsinlər;

3.2. haqsız rəqabət və dempinq hallarına yol verilməməsini, auditə ictimai etimadın artırılmasını təmin etsinlər;

3.3. auditor xidmətinin yeni növ və istiqamətlərinin tətbiqi hesabına auditor xidməti bazarının genişləndirilməsi istiqamətində tədbirlər həyata keçirsinlər.

4. Auditin təşkili, hesabatlılıq və informasiya idarəsinə (V.Cavadov) tapşırılsın ki:

4.1. bir ay müddətində 2022-ci ilin I yarımilliyi ərzində auditor təşkilatları və sərbəst auditorlar tərəfindən yerinə yetirilmiş müqavilələrin 2021-ci ilin I yarımilliyi ilə müqaisədə 12.5% azalmasının səbəbləri araşdırılsın və nəticəsi barədə Palatanın rəhbərliyinə arayış təqdim edilsin;

4.2. Auditorlar Palatası Şurasının 2019-cu il 28 dekabr tarixli 316/6 nömrəli "Azərbaycan Respublikasının ərazisində göstərilən auditor xidmətlərinin dəyərinin tövsiyə olunan minimum hədlərinə yenidən baxılması barədə" qərarına əməl etməyən və dempinqə yol verən auditor təşkilatlarına və sərbəst auditorlara hesabatın XII bəndinə müvafiq olaraq gələcəkdə bir daha belə hallara yol verdikləri təqdirdə barələrində daha ciddi intizam tədbirləri görüləcəyi barədə xəbərdarlıq məktubu göndərilsin.

4.3. auditor xidmətinin sifarişçiləri ilə sistematik maarifləndirici və təşviqat işlərinin həyata keçirilməsi təmin edilsin.

5. Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətinin idarə edilməsi idarəsinə və Palatanın Şurası yanında Haqsız rəqabətə qarşı mübarizə üzrə komitəyə (Q.Əhmədov) tapşırılsın ki:

5.1. Auditorlar Palatası sədrinin 2022-ci il 02 fevral tarixli 1/6 nömrəli sərəncamına əsasən yaradılan komissiya ilə birlikdə qiymət dempinqinə yol verən auditor təşkilatlarına və sərbəst auditorlara tətbiq edilən inzibati tənbeh tədbirlərinin davam etdirilməsi təmin edilsin.

5.2. 2022-2023-cü illər ərzində auditorun şəxsi kabineti sistemində auditin qiymətləndirilməsinin minimumdan aşağı endirməyə imkan verməyən ağıllı müqavilə funksiyasının yaradılması və tətbiqi təmin edilsin.

6. Müvafiq icraçılara (N.Talıbov, V.Cavadov, Q.Əhmədov, Z.Almazov) tapşırılsın ki, bir ay müddətində 2021-ci ilin I yarımilliyi ilə müqayisədə 2022-ci ilin I yarımilliyində əlaqəli auditor xidmətlərinin azalmasının səbəbləri araşdırılsın və əlaqəli auditor xidmətlərinin inkişaf etdirilməsinə dair təkliflər hazırlanıb təqdim edilsin.

7. Sədrin müşaviri F.Qarayevə və Auditin innovativ inkişafı, operativ tənzimləmə və keyfiyyətinin idarə edilməsi idarəsinə tapşırılsın ki, bu qərarın mətninin Palatanın internet səhifəsində və auditorun şəxsi kabineti sistemində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**